Fevralın 20-dən martın 18-dək davam edəcək yarışa Bakıda yerləşən ümumtəhsil məktəblərinin VIII sinfində oxuyan oğlanlardan ibarət komandalar qatılacaq.

Çempionatın keçirilməsində məqsəd "Azərbaycan Respublikasında 2005-2015-ci illərdə futbolun inkişafına dair Dövlət Proqramı"ndan irəli gələn vəzifələri yerinə yetirmək, 2015-ci ildə Bakı şəhərində keçiriləcək birinci Avropa Oyunlarının mahiyyətini məktəblilər arasında təbliğ etmək, yeniyetmələri sağlam həyat tərzinə cəlb etmək, məktəbli futbolçuların idman ustalıqlarını artırmaq və mini futbolu təbliğ etməkdən ibarətdir.

AFFA tərəfindən seçilmiş hakimlərin idarə edəcəyi yarış 3 mərhələ üzrə keçiriləcək. I mərhələ rayondaxili yarışları əhatə edəcək. II mərhələdə yarışlar yarımqruplar üzrə təşkil olunacaq. Sonuncu mərhələdə isə yarımqrupların qalibləri qarşılaşacaq.

Final yarışında I, II və III yeri tutan komandalar Təhsil Nazirliyinin diplom, kubok və qiymətli hədiyyələri ilə təltif olunacaq.

**Məktəblilərin mini futbol üzrə Bakı şəhər çempionatının keçirilməsi barədə Azərbaycan Respublikası təhsil nazirinin əmri**